ÜMUMDÜNYA
ŞƏHƏRSALMA
FORUMU

ON ÜÇÜNCÜ SESSİYA

BAKI, AZƏRBAYCAN | 17-22 MAY 2026-CI İL

# WUF13 media akkreditasiyası

## Tez-tez verilən suallar



# WUF13 media akkreditasiyası nədir?

WUF13 tədbiri üçün media akkreditasiyası BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən təqdim olunan rəsmi icazə sənədidir və həm peşəkar jurnalistlərə, həm də media nümayəndələrinə **2026-cı il mayın 17-dən 22-dək** Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasını (WUF13) işıqlandırmağa imkan yaradır. Bu akkreditasiya WUF13 məkanına və xüsusi media zonalarına daxil olmaq, yüksək səviyyəli spikerlər və BMT rəsmilərindən müsahibə götürmək, mətbuat brifinqləri və əsas sessiyalarda iştirak etmək və əlavə akkreditasiya tələb olunmadan, tədbir məkanında canlı yayım və foto-video çəkilişlə yanaşı, reportajlar hazırlamaq hüququ verir.

## WUF13 media akkreditasiyası kim tərəfindən idarə olunur?

WUF13 media akkreditasiyası BMT-nin Məskunlaşma Proqramı **(UN-Habitat)** tərəfindən idarə olunur. Media akkreditasiyası ilə bağlı verilən bütün təsdiq, imtina və ya ləğv qərarları yekundur.

## Media akkreditasiyası üçün necə müraciət edə bilərəm?

WUF13 media akkreditasiyası ilə bağlı müraciət etmək üçün BMT-nin Məskunlaşma Proqramının onlayn qeydiyyat sistemindən istifadə etməlisiniz. Müraciət prosesi aşağıdakı mərhələlərdən ibarətdir:

1. Qeydiyyat portalına daxil olun və “World Urban Forum13 (WUF13)” bölməsini seçin.
2. Hesabınız varsa, sistemə daxil olun. Əgər hesabınız yoxdursa, yeni hesab yaradın və tərəfdaşlıq növü kimi “Media” kateqoriyasını seçin
3. Tələb olunan sənədləri (dövlət tərəfindən verilmiş şəxsiyyət vəsiqəsi, peşəkar statusu təsdiq edən sənəd və son iş nümunələri) yükləyərək müraciətinizi təqdim edin.

Elektron və ya adi poçt vasitəsilə təqdim olunan müraciətlərə baxılmayacaq. Müraciət təsdiqləndikdən sonra akkreditasiyanızı təsdiq edən rəsmi bildiriş məktubu alacaqsınız.

## Akkreditasiya nəyə əsasən verilir?

Akkreditasiya müraciət edən tərəfin peşəkar jurnalist statusu, qanuni qaydada qeydiyyatdan keçmiş və etibarlı media qurumunu təmsil etməsi, eləcə də tələb olunan sənədləri BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) media akkreditasiyası üzrə meyarlarına uyğun olaraq tam və düzgün şəkildə təqdim etməsi əsasında verilir.

## Media akkreditasiyası üçün kim müraciət edə bilər?

WUF13 media akkreditasiyası üçün BMT-yə üzv dövlətlərdən birində qanuni qaydada qeydiyyatdan keçmiş və etibarlı media qurumunu təmsil edən peşəkar jurnalistlər və media əməkdaşları, o cümlədən çap və onlayn media, fotojurnalistika, radio, televiziya sahəsində, eləcə də xəbər agentliklərində çalışan nümayəndələr müraciət edə bilərlər.

Müstəqil şəkildə fəaliyyət göstərən şəxslər (frilanslar) rəsmi media qurumunun xidməti ezamiyyə məktubu ilə müraciət edə bilərlər. Həmçinin, müraciət edən tərəflər şəxsiyyəti təsdiq edən rəsmi sənəd, peşəkar statusu təsdiq edən sənəd və son dövrdə dərc edilmiş iş nümunələri kimi bir sıra tələb olunan sənədləri təqdim etməlidirlər.

## Müstəqil fəaliyyət göstərən (frilans) jurnalistlər müraciət edə bilərlərmi?

Müstəqil şəkildə fəaliyyət göstərən (frilans) jurnalistlər müvafiq media qurumunun xidməti ezamiyyə məktubu ilə müraciət edə bilərlər. Həmçinin, müraciət edən tərəflər dövlət tərəfindən verilmiş və şəxsiyyəti təsdiq edən sənəd, peşəkar statusu təsdiq edən sənəd və son dövrdə dərc edilmiş iş nümunələri kimi bir sıra tələb olunan sənədləri təqdim etməlidirlər.

## Tələbələr media akkreditasiyası üçün müraciət edə bilərlərmi?

**Xeyr,** tələbələr WUF13 media akkreditasiyası üçün müraciət edə bilməzlər; yalnız rəsmi media qurumunda peşəkar jurnalist kimi fəaliyyət göstərdikləri və tələb olunan sənədləri təqdim edə bildikləri halda müraciət etmək hüququna malikdirlər.

## Blogerlər / video blogerlər və onlayn media nümayəndələri müraciət edə bilərlərmi?

**Bəli,** blogerlər, video blogerlər və onlayn media nümayəndələri BMT-yə üzv dövlətlərdən birində qanuni qeydiyyatdan keçmiş etibarlı media qurumunu təmsil edərlərsə, o zaman tələb olunan sənədləri, o cümlədən peşəkar statusu təsdiq edən sənəd və son dövrdə dərc olunmuş iş nümunələrini təqdim etməklə müraciət edə bilərlər.

Həmçinin, bu kateqoriyalara aid olan frilans media nümayəndələri rəsmi media qurumunun etibarlı ezamiyyə məktubunu təqdim etməlidirlər.

## Mən qurumun mətbuat katibi vəzifəsində çalışıram. Tədbirdə iştirak etmək üçün mənə media akkreditasiyası tələb olunurmu?

**Xeyr,** adınız rəsmi nümayəndə heyətinin siyahısında olmalıdır və siz nümayəndə heyətinin üzvü kimi qeydiyyata alınacaqsınız.

## Yaş məhdudiyyəti varmı?

**Bəli,** müraciət edən şəxslərin yaşı ən azı 18 olmalıdır.

## Elektron poçt vasitəsilə müraciət edə bilərəmmi?

WUF13 media akkreditasiyası ilə bağlı bütün müraciətlər BMT-nin Məskunlaşma Proqramının Qlobal Tədbir İdarəetmə Sistemi (GEMS) vasitəsilə təqdim edilməlidir. Elektron və ya adi poçt vasitəsilə təqdim olunan müraciətlərə baxılmayacaq.

## Müraciət üçün son tarix varmı?

**Bəli.** Akkreditasiya üçün son tarix WUF13-ün rəsmi vebsaytında elan ediləcək. Müraciətləri mümkün qədər erkən təqdim etmək tövsiyə olunur.

## Mən Ümumdünya Şəhərsalma Forumunun əvvəlki sessiyalarını işıqlandırmışam. Yenidən müraciət etməliyəmmi?

**Bəli.** Media akkreditasiyası yalnız bu tədbir üçün verilir. Ümumdünya Şəhərsalma Forumunun əvvəlki sessiyaları ilə bağlı verilmiş akkreditasiyalar WUF13 üçün etibarlı deyil.

## Hansı şəxsi məlumatlar tələb olunur?

WUF13 media akkreditasiyası üçün tələb olunan şəxsi məlumatlara aşağıdakılar daxildir:

- Ad və soyad (pasport və ya şəxsiyyəti təsdiq edən rəsmi sənəddə göstərildiyi kimi)
- Doğum tarixi
- Vətəndaşlıq
- Pasport və ya şəxsiyyəti təsdiq edən digər rəsmi fotoşəkilli sənədin nömrəsi
- E-poçt ünvanı
- Ünvan
- Telefon nömrəsi

Bu məlumatlar tələb olunan sənədlərlə birlikdə BMT-nin Məskunlaşma Proqramının Qlobal Tədbir İdarəetmə Sistemi (GEMS) vasitəsilə təqdim edilməlidir.

## Müraciətim hansı səbəbə görə gecikdirilə və ya imtina oluna bilər?

Ən çox rast gəlinən səbəblər bunlardır:

- Tələb olunan sənədlərin təqdim edilməməsi və ya natamam olması;
- İmzasız və ya etibarsız ezamiyyə məktubları;
- Etibarlılıq müddəti bitmiş jurnalist vəsiqələri;
- Materialların BMT-nin işçi dillərində təqdim edilməməsi.

## Ezamiyyə məktubu hansı məlumatları ehtiva etməlidir?

Məktub aşağıdakı tələblərə cavab verməlidir:

- Qanuni qeydiyyatdan keçmiş və etibarlı media qurumunun rəsmi blankında hazırlanmalıdır.
- BMT-nin Məskunlaşma Proqramının Kommunikasiya şöbəsinin rəhbərinə ünvanlanmalı və unhabitat-media@un.org elektron poçtuna göndərilməlidir.
- İngilis dilində və ya BMT-nin digər rəsmi dillərindən birində tərtib olunmalıdır.
- Səlahiyyətli şəxs (naşir, baş redaktor və ya xəbərlər rubrikasının direktoru) tərəfindən imzalanmalıdır.
- Aşağıdakı məlumatları ehtiva etməlidir: jurnalistin (jurnalistlərin) tam adı (adları), vəzifəsi (vəzifələri), ezamiyyət tarixləri və WUF13-ü işıqlandırmaq niyyəti.

## Mən öz fotoşəkilimi təqdim etməliyəmmi?

**Bəli,** WUF13 media akkreditasiyası üçün müraciət edən şəxslər (ərizənin bir hissəsi kimi) Qlobal Tədbir İdarəetmə Sisteminə (GEMS) yeni çəkilmiş fotoşəkillərini yükləməlidirlər.

## Mənim jurnalist vəsiqəm yoxdur. Buna baxmayaraq, müraciət edə bilərəmmi?

Jurnalist vəsiqəsi əvəzinə rəsmi media qurumunun ezamiyyə məktubunu təqdim edə bilərsiniz.

## Akkreditasiya statusumu necə yoxlaya bilərəm?

WUF13 media akkreditasiyası üçün müraciətinizin statusunu Qlobal Tədbir İdarəetmə Sistemi (GEMS) platformasındakı şəxsi hesabınıza daxil olaraq öyrənə bilərsiniz. Sistemə daxil olduqdan sonra müraciətinizin cari vəziyyətini - gözləmədə olduğunu, təsdiqləndiyini və ya əlavə məlumat tələb olunduğunu görə bilərsiniz.

## Media akkreditasiyası sayəsində hansı məkana daxil olmaq və hansı imkanlardan yararlanmaq olar?

WUF13 media akkreditasiyası sayəsində aşağıda sadalanan məkanlara daxil olmaq / imkanlardan yararlanmaq mümkündür:

- Tədbirin keçirildiyi Bakı Olimpiya Stadionu və media üçün ayrılmış xüsusi zonalara daxil olmaq;
- Milli və yerli hökumət nümayəndələri, eləcə də BMT rəsmiləri ilə keçirilən mətbuat brifinqlərində iştirak etmək;
- Yüksək səviyyəli spikerlərdən müsahibə götürmək;
- Forum məkanında canlı yayım və foto-video çəkilişlər aparmaq, reportajlar hazırlamaq (əlavə məkan akkreditasiyası tələb olunmur);
- İnnovativ şəhər həllərini nümayiş etdirən sərgi iştirakçıları ilə ünsiyyət qurmaq;
- Əsas sessiya və müzakirələrin səhnə arxasına giriş imkanından yararlanmaq.

## Akkreditasiya bütün tədbir günlərində etibarlıdırmı?

**Bəli,** təsdiqləndikdən sonra akkreditasiya WUF13 tədbirinin bütün dövrünü əhatə edir.

## Yaxa nişanını əvvəlcədən əldə edə bilərəmmi?

WUF13 üçün nəzərdə tutulmuş yaxa nişanları tədbirin keçirildiyi məkan olan Bakı Olimpiya Stadionunda yerləşən Akkreditasiya və Qeydiyyat Mərkəzində təqdim ediləcəkdir.

Qeydiyyatdan keçən iştirakçılar üçün yaxa nişanlarının təqdim edilməsi isə 14-22 may 2026-cı il tarixlərində həyata keçiriləcəkdir.

## Yaxa nişanını əldə etmək üçün hansı sənədlər tələb olunur?

Aşağıdakı sənədləri təqdim etməlisiniz:

- Akkreditasiyanı təsdiq edən sənəd (unikal qeydiyyat nömrənizi və QR kodunuzu əks etdirən çap olunmuş və ya rəqəmsal formatlı sənəd)
- Qeydiyyat zamanı şəxsiyyətinizi təsdiq etmək üçün istifadə etdiyiniz eyni etibarlı fotoşəkilli sənəd

## Eyni zamanda həm media nümayəndəsi, həm də nümayəndə heyətinin üzvü/QHT nümayəndəsi kimi qeydiyyatdan keçə bilərəmmi?

**Xeyr,** ikili qeydiyyata icazə verilmir. Artıq nümayəndə və ya müşahidəçi qismində qeydiyyatdan keçmiş şəxslər media akkreditasiyası almaq hüququna malik deyillər.

## Akkreditasiya başqa şəxsə ötürülə bilərmi?

**Xeyr,** media yaxa nişanları konkret şəxsə verilir və başqasına ötürülə bilməz.

## WUF13 jurnalistlər üçün maliyyə dəstəyini təmin edirmi?

**Xeyr.** Media nümayəndələri səfər, qonaqlama və digər müvafiq xərclər üçün məsuliyyəti öz üzərlərinə götürürlər.

## Media akkreditasiyası ilə bağlı sualları hansı elektron poçt ünvanına yönləndirə bilərəm?

Media akkreditasiyası ilə bağlı bütün suallarınızı rəsmi elektron poçt ünvanına göndərə bilərsiniz: mediaservices@wuf13.az

17-22 May 2026
Bakı, Azərbaycan

